**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikasının
Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
040/1 №-li Əmr
14 fevral 2011-ci il
**Sədr___________________R.Aslanlı**

# İnvestisiya qiymətli kağızlarla Repo əməliyyatlarının aparılması Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 05 mart tarixli 70 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında” Əsasnaməyə müvafiq olaraq, hazırlanmış və Azərbaycan Respublikasının ərazisində investisiya qiymətli kağızlarla fond birjasında Repo əməliyyatlarının aparılması qaydalarını müəyyən edir. `

1.2. Bu Qaydaların müddəaları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qiymətli kağızları ilə Repo və əks Repo əməliyyatlarının aparılmasına şamil edilmir.

## 2. Əsas anlayışlar

2.1. Repo əməliyyatı - investisiya qiymətli kağızların əvvəlcədən müəyyən edilmiş şərtlərlə geri satın alınması (satılması) öhdəliyi ilə satılmasıdır (alınmasıdır).

2.2. Repo açılış əqdi – Repo əməliyyatının birinci hissəsi olmaqla, investisiya qiymətli kağızların satılması (alınması) üzrə əqddir.

2.3. Repo bağlanış əqdi - Repo əməliyyatının ikinci hissəsi olmaqla, investisiya qiymətli kağızların geri satın alınması (satılması) üzrə əqddir.

2.4. Repo alıcısı - Repo açılış əqdi zamanı qiymətli kağızların alıcısı qismində, Repo bağlanış əqdi zamanı qiymətli kağızların satıcısı qismində çıxış edən Repo əməliyyatının iştirakçısıdır.

2.5. Repo satıcısı - Repo açılış əqdi zamanı qiymətli kağızların satıcısı qismində, Repo bağlanış əqdi zamanı qiymətli kağızların alıcısı qismində çıxış edən Repo əməliyyatının iştirakçısıdır.

2.6. Reponun predmeti - üzərində Repo əməliyyatı aparıla bilən bir buraxılış daxilində olan qiymətli kağızlardır.

2.7. Repo müddəti - Repo açılış əqdi ilə Repo bağlanış əqdi arasındakı müddətdir.

2.8. Repo Baş Razılaşması (bundan sonra – Baş Razılaşma*)* – Repo əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini, məsuliyyətini müəyyənləşdirən fond birjası ilə qiymətli kağızlar bazarının peşəkar iştirakçıları arasında bağlanılan müqavilədir.

2.9. Reponun açılma tarixi – Repo satıcısı tərəfindən qiymətli kağızların Repo alıcısına satıldığı və Repo alıcısı tərəfindən onların alındığı tarixdir.

2.10. Reponun bağlanma tarixi - Repo satıcısı tərəfindən qiymətli kağızların Repo alıcısından geri satın alındığı və Repo alıcısı tərəfindən onların geri satıldığı tarixdir.

2.11. Repo şəhadətnaməsi – Repo əməliyyatının həyata keçirildiyini rəsmiləşdirən və Repo iştirakçılarının Repo əməliyyatı üzrə öhdəliklərini Baş Razılaşmaya uyğun olaraq, təsdiq edən sənəddir.

## 3. Repo əməliyyatının xüsusiyyətləri

3.1. Fond birjasında Repo əməliyyatı Baş Razılaşma əsasında fond birjasının qaydalarına uyğun olaraq, kliring təşkilatının iştirakı ilə həyata keçirilir.

3.2. Repo əməliyyatı üzrə əmələ gələn öhdəliklərin icra olunmasında təminatçı kimi kliring təşkilatı çıxış edir. Repo əməliyyatı üzrə öhdəliklərin və təminatların həcmi kliring təşkilatı tərəfindən hesablanır.

3.3. Hər bir Repo əməliyyatı fond birjası tərəfindən Repo şəhadətnaməsi ilə təsdiq edilir.

3.4. Reponun predmetini yalnız fond birjasında ticarətə buraxılmış investisiya qiymətli kağızları təşkil edə bilər.

3.5. Repo açılış əqdinin həyata keçirilməsi üçün Reponun predmeti olan qiymətli kağızlar Repo satıcısının hesabında kliring təşkilatının tapşırığına əsasən, depozitar tərəfindən dondurulur.

3.6. Repo müddəti ərzində Reponun predmeti olan investisiya qiymətli kağızlar Repo satıcısının depo hesabında dondurulur.

3.7. Repo satıcısının hesabında dondurulmuş qiymətli kağızların dondurmadan azad edilməsi yalnız kliring təşkilatının tapşırığına əsasən depozitar tərəfindən həyata keçirilir.

3.8. Repo əməliyyatlarının həyata keçirilməsinin maksimum müddətinə fond birjası tərəfindən məhdudiyyət qoyula bilər.

3.9. Reponun bağlanma tarixi reponun predmeti olan qiymətli kağızların ödəniş və ya geri satınalınmasının başlanması tarixindən ən azı beş gün əvvəl olmalıdır. Repo açılış əqdi və Repo bağlanış əqdi eyni tarixdə həyata keçirildikdə, Reponun müddəti bir gün hesab edilir.

3.10. Repo müddəti ərzində Repo satıcısı və Repo alıcısı qarşılıqlı razılıq və Baş Razılaşma əsasında Repo şərtlərini dəyişdirmək hüququna malikdirlər.

3.11. Repo müddəti ərzində Reponun predmeti olan qiymətli kağızlarla təsbit edilmiş hüquqlar Repo açılış əqdi zamanı Repo satıcısı kimi çıxış edən şəxsə məxsusdur.

## 4. Repo əməliyyatı üzrə öhdəliklərin icra edilməsi

4.1. Reponun bağlanma tarixi qeyri-iş gününə düşdüyü halda əqd növbəti ilk iş günü öhdəliklər dəyişilmədən icra edilir.

4.2. Repo əməliyyatı üzrə öhdəliklərin qismən icra olunmasına yol verilmir.

4.3. Tərəflərdən biri Repo əməliyyatının şərtlərini yerinə yetirmədiyi təqdirdə, Repo əməliyyatı üzrə əmələ gələn öhdəliklərin icrası Baş Razılaşmaya uyğun olaraq, həyata keçirilir.

## 5. Repo Baş Razılaşma

5.1. Baş Razılaşma bu Qaydalara və mövcud qanunvericiliyə uyğun olaraq fond birjası tərəfindən tərtib edilir. Repo Baş Razılaşmasında aşağıdakı müddəalar öz əksini tapmalıdır:

5.1.1. Razılaşmanın predmeti;

5.1.2. Repo əməliyyatlarının bağlanması və öhdəliklərin icrası şərtləri;

5.1.3. Repo açılış və bağlanış qiymətlərinin hesablanması qaydası;

5.1.4. Repo əməliyyatları üzrə öhdəliklərin müəyyən edilməsi qaydası;

5.1.5. Repo əməliyyatı üzrə təminatların formalaşması qaydası;

5.1.6. Repo əməliyyatı üzrə öhdəliklər yerinə yetirilmədiyi təqdirdə görüləcək tədbirlər;

5.1.7. Məsuliyyət məsələləri;

5.1.8. Tərəflərin zəruri hesab etdiyi digər müddəalar.